# İNSANA ACI HARAY

Ruh obrazı demək olar ki, həmişə ədəbi-fəlsəfi düşüncənin tədqiqat obyekti olub. Hegel *«Ruh fəlsəfəsi»* əsərinin elə girişindəcə yazır: *«Ruhun dərki ən konkret, ona görə də ən yüksək və çətin işdir. Özünü dərk et - mütləq vəziyyəti nə özlüyündə, nə də onun tarixən irəli sürüldüyü yerdə yalnız ayrıca fərdi qabiliyyətə, xarakterə meyil və acizliyə yönəlik özünüdərk anlamı daşımayıb, insanda gerçək, özündə və özü üçün əsl mahiyyətin ruh kimi dərki anlamı daşıyır».* Doğrudur, burada dünya fəlsəfi irsinin ən qüdrətli nümunəsindən tərcüməni o qədər də uğurlu saymaq olmaz. Çünki fikirlər çox dolaşıq və aydın olmayan bir müstəvidə təqdim olunur. Başa düşülən odur ki, böyük filosof özünü dərk et, - deyir. Təqribən bunu da belə anlamaq olar ki, özünü dərk edən insan ruhu ilə danışa da bilər. Yəni daxilən, öz düşüncələri ilə. Bütün hallarda Hegelin qeyd etdiyi kimi, ruhun dərki çətin iş olaraq qalır.

Ruh məsələsi filosofları çox maraqlandırdığı kimi, psixoloqlar, psixiatrlar da ruhla bağlı tədqiqatları ardıcıl davam etdirirlər. Eyni zamanda, şairlər, yazıçılar, öz əsərlərində ruhu əks etdirməyə çalışır. Ruhun mahiyyətini davamlı olaraq açmaq istəyirlər.

**Məlahət Soltanqızı** da həm bir şair, həm də tədqiqatçı kimi ruh məsələsini bədii müstəviyə gətirməyə çalışıb. Əlbəttə, onu maraqlandıran istiqamətdə.

Əvvəla, onu qeyd etmək lazımdır ki, ruhla maraqlanan hər hansı bir ixtisas sahibi mövzuya bildiyi tərəfdən yanaşmağa çalışır. Bu mənada, M.Soltanqızı da ruhu bədii müstəviyə gətirərkən insan təbiətinin ziddiyyətli tərəflərini ruhun təbiəti kimi verir. Yəni, bir insanın təbiətində yaxşının və pisin olması onun düşüncələrinin tam arınmadığının göstəricisidir.

Bütün hallarda Məlahət Soltanqızının *«Ruhun savaşı»* poeması insan təbiətində olan ziddiyyətlərin qarşılaşması təzadların üz-üzə gəlməsi ilə bağlı mövzunun işlənməsidir.

*«Ruhun savaşı»* poemasında ruh ali varlıq kimi götürülür. Yəni ruh insanın təbiətindəki yaxşı və pisdən yuxarıda dayanır. O, insanın təbiətinə təsir göstərmək istəyir. Bizə elə gəlir ki, bəzi məqamlarda ruh hətta şərin tərəfində də durur. Amma əsasən biz ruhu xeyirin təmsilçisi kimi görürük. Xüsusilə, Məlahət Soltanqızının bu əsərində ruh insanın şər xislətinə qarşı vuruşur. Onu xeyir tərəfə döndərməyə çalışır. Zənnimcə, poemanın estetik dəyərini də elə bu istiqamətdə təqdim etmək, tədqiq etmək daha çox təqdirə layiqdir.

Müəllif əsəri olum və ölüm obrazlarını qarşılaşdırmaqla başlayır. Və olum yolu ilə ölüm yolunu bir-birindən ayırmır. İnsanı da bu yolun yolçusu hesab edir. Axı həqiqətən insan olumdan gəlib ölümə doğru gedir. Onun həyatı bu iki qütbün arasında cərəyan edir.

Müəllif cəmiyyətin mənəvi həyatını bütün ziddiyyətləri ilə, təzadları ilə yazı müstəvisinə gətirir. Fikirlərin, düşüncələrin bir-birini izləməsi, ayrı-ayrı məqamların məntiqi tamamlanmaları və bir-birilə əlaqələndirilmələri eyni ahəng və nəfəslə cərəyan edir. Biz müəllifin təkcə geniş düşüncə məkanını yox, həm də həyatın özünün dərk oluna bilən tərəflərinin hamısını bir bütöv halında görürük. Oxucu ümumi ahənglə yazıçıdan ayrılmır. Müəllifin təhkiyəsinə qoşulub sanki yuxarıdan həyatın görünən və görünməyən tərəflərin hamısını seyr edir: *«Olumdan ölümə bir yol gedirik... Bu yol ömür yoludur, Bu yol bizi bir bilsən haralardan keçirər, Bu yol bizə zülmətin şərabını içirər, Bu dünyanı bir oyun, bir oyuncaq sanan var... Bu dünyanı bir oyun, bir oyuncaq sananlar! Halaldan üz çevirib harama üz tutanlar! Halal-haram deyə bir şey var axı... Nədən olduq belə sərvətin acı Halalı unudaraq Harama açdıq qapı. Azacıq yaşımızla unutduq haqq-hesabı, Tərəzidə qazanıb, insanlıqda uduzduq, Qazancımız artdıqca özümüzü unutduq Şirinə qatdıq acı Ehtiyacın içində üzənləri görmədik. Pulumuzu sanadıq, Pulumuzu qoymağa Xəlvəti yer aradıq. Nədən olduq belə sərvətin acı keçmişdən dərs almadıq. Unutduq başımızdan sovuşan bəlaları, Unutduq qara donlu əzazil şeytanları, Hansı yana çevirsən haqqın bircə üzü var».* Məlumdur ki, insanın tamahı özü də doyubdolanmayan tamahı həmişə onun başına bəla olub. Nizami də, Mövlanə Cəlaləddin Rumi də, Yəsəvi də... digər görkəmli filosof şairlərin demək olar ki, hamısı da insanı öz nəfsilə vuruşmağa çalışıb. Öz nəfsinə qalib gələn insanı müdrik və aqil biliblər.

Beləliklə, Məlahət Soltanqızı da insan təbiətində ziddiyyətin yaranmasının əsasında onun tamahını əsas amil kimi qəbul edir. Pulun, sərvətin düşgünləri üçün bədbəxtlik qapısının hər vaxt açıq olduğunu göstərir. Məhz bu düşgünlərin sayəsində şirinlər acı olur, doğrular yalana çevrilir, həqiqətlər danılır... Şübhəsiz, bu cür düşüncə tərzi müharibələrə də yol açır, qətillərə, qırğınlara səbəb olur, qarətkarlar insanın halal zəhmətlə qazandıqlarını mənimsəməyə çalışırlar. Amma unudurlar ki, bütün məqamlarda hər bir əməlin əvəzi var.

Yeri gəlmişkən, biz burada otuz ildən çox - bir qərinə qədərində erməni vandallarının şəhərlərimizi xarabazarlığa çevirdiklərini də xatırlada bilərik. Böyük sarayları, evləri, xalqımızın alın təri hesabına yaradılmış madiyyatları talayıb, satıb dağıtdılar. Yəqin ki, onların çoxuna elə gəlirdi ki, bu qalib ədanı gələcək nəsillərinə də bəxş edəcəklər. Amma Azərbaycan ordusu mübarizəyə çağıran ordunun təsirilə savaşa qalxdı. Əslində, Məlahət Soltanqızı öz əsəri ilə bu tarixi ibrəti yada salmaqla gələcək nəsillər üçün həqiqətin kimin tərəfində olduğuna diqqəti yönəltmək istəyir. Yəni həqiqət kimin tərəfindədirsə, onun da ruhu qalibdir. Necə ki, 44 günlük savaş tarixi bir ibrət kimi salnamələrdə yaşayacaq. İnsan əməllərinin nəticəsi olaraq divana çəkiləndə, mühakimə olunanda ona nəfsinin tələbi ilə qəsb etdikləri kömək etmir.

Cəmiyyətdə haqqın, həqiqətin nizamının qorunmasında Məlahət Soltanqızı əsas idarəedici kimi tanrı obrazını göstərir. Xalq arasında deyildiyi kimi, o, insanlara xatırladır ki, Allahın səbri genişdir. Gec eləyir, güc eləyir. Ən yaxşısı budur ki, elə Məlahət Soltanqızının öz yazdıqlarına diqqət edək: *«Bir gün üz-üzə gələn ölümün əcəliylə, Dadına yetişərmi milyonlarla xəzinə? Nadanın bağçasında gül-çiçəyi bitirən, Alimin zəkasıyla göyü yerə gətirən Bir Tanrı var... Hər şeyin yaxşısını, o, bilir. Olumun-ölümün ucu əlində, Məkanı dünyanın uca yerində Sevinci kədərə çevirən də, O İşığı, zülməti devirən də, O Bizi ucaldan da, endirən də, O Bizi susduran da, dindirən də, O Gecənin bir çağı məni oyadan, Şeiriyyət odunda Nura boyadan, Əlimə qələm verib sətirlərə söz düzən... Xəyalın qanadında bütün dünyanı gəzən Tanrı özü deyilmi?..»* Burada biz Tanrının mədhini görürük, tərifini hiss edirik. Sanki bununla Məlahət Soltanqızı da oxucusuna həyatda baş verən ağ-qara savaşı zamanı darılmamağı, tələsməməyi təlqin edir. Yəni xeyirin və şərin qarşılaşması zamanı Tanrının mütləq olaraq xeyirin tərəfində olacağını yada salır. Hətta çox maraqlı bir nüansla Tanrının ulu dünyanı bütöv halda gördüyünü də qeyd edir. Yəni, insan düşüncəsinin hüdudsuzluğunda, xəyalının bir anlığa bütün kainatı gəşt etməsində elə Tanrı gücü gördüyünü bildirir. Maraqlıdır ki, o, özünün də yazı istəyinin məhz Tanrı istəyi olduğunu deyir.

*«Ruhun savaşı»* poeması dünyanın insanların taleyi haqqında narahatlıqla düşünən qələm sahibinin, söz sahibinin öz qəlbi ilə dilləşməsidir. Biz belə dilləşməyə esse deyirik.

Müəllif səfər üçün uzaq bir mənzil seçib. Xəyalın dünyanı dolaşsa da yolu aydındır. Bu, olum və ölüm arası yoldur və müəllif də bunu tez-tez xatırladır: *«Olumdan ölümə bir yol gedirik... Hələ yuxudayıq ayılmamışıq... Bu yol uzun deyil, ey yolçu, dayan! Bu böyük hikməti dinlə, dur, oyan. Günləri əlindən uçurma bir-bir, Bu gözəl dünyanın qiymətini bil Çəmənin, çiçəyin qoxusuna bax Gör nələr yetirib bu ulu torpaq Başına tutma çətir, İslan yağışda, qarda Boş yerə yağmır axı Bu yağış da, bu qar da. Bir iz qoy meşəsində, bərəsində, ağında, Əlinlə bir ağac ək bağçasında, bağında, Bir quyu qaz, su çıxar torpağın sinəsindən, İnsanlıq bəhrələnsin yerin xəzinəsindən. İnsanlar sevinsin gülər üzünlə, Ruhun qanadını qırma sözünlə, Yıxılan görəndə qollarından tut, Bu fani dünyada pisliyi unut».* Poetik vəcdin sözə köklənməsi zamanı fikir və düşüncə sahibinin hikmətlər yaratdığına kimsə şübhə edə bilməz. Elə poemanın bu məqamlarında da biz çox dəyərli aforizmlərə, hikmətli fikir, düşüncə yekunlarına rast gəlirik. Bu da onu göstərir ki, müəllif həyatı kifayət qədər bilir, həyatın rənglərindən baş çıxara bilir. Ona görə də həyati müşahidələrini dəqiq fikir düsturları kimi ərsəyə gətirə bilir. İnsanların yolu heç vaxt hamar olmayıb. Ən başlıcası, insanlar həmişə öz sevinclərinin yanında kədərlər, qəmlər də görüb. Bu yolu birisi ağır, iztirablı günlərlə keçir, başqa birisi həyatında, ovqatında daha şad, xürrəm duyğularla bu yolun müsafiri olur. Amma hər halda heç kimdə ovqat axıracan birmənalı qalmır. Ovqatlar insanın təbiəti kimi bir-birini əvəz edir. Və bu yerdə yenə Məlahət Soltanqızının dəyərli hikmətləri oxucunu müşayiət edir: *«Olumdan ölümə bir yol gedirik... Kimi sevinciylə, kimi qəmiylə, Kimisi piyada, kimisi atlı, Kiminin belində ağır şələsi Kiminin dalında durub ləlsi Quş öz dimdiyiylə qurur yuvasın, Bəsləyir, böyüdür neçə balasın. Bir iş zəhmətinlə gəlirsə başa Ağız açma yada, dosta, sirdaşa Quş tək öz əlinlə qur. Zəhmətin bəhrəsi çox şirin olur».* Bu kiçik parçanın içərisində də biz maraqlı məqamlarla qarşılaşırıq. Müəllif birinin çiynində ağır yük olduğunu qeyd edir. Amma digərinin bu ağır yükə şərik olmaması, yalnız öz köçünü sürməsini də maraqlı bir detalla əsaslandırır. Yəni bələlərinin də «lələ»si var. Lələ himayədardır, lələ həyata əli çatmayana sahib çıxandır. Ancaq dövrümüzdə, zamanımızda erməni vandallarına lələlik edənləri də yaddaşımız bizdən soruşmadan gözlərimizin önünə gətirir.

Həyatın nizamı o vaxt pozulur ki, haqlı olanın səsi eşidilmir. Amma haqsız olana hay verən çox olur. Şübhəsiz, bu cür təzadlar Məlahət Soltanqızını bütün həyatı boyu düşündürür. Çox güman ki, müəllif bu əsər haqqında çox düşünüb, ancaq onun yazılmasına çox az vaxt sərf edib. Çünki yazı xüsusi bir ilhamla qələmə alınıb.

Müəllif öz zəhmətilə yaşayanları, həyatın çətinliklərindən min bir ağrıacı ilə keçənləri çox acı duyğularla vəsf edir. Sanki insanları bələlərini görməyə çağırır.

«Ruhun savaşı» bu yerdə sanki özünü təsdiq edir. Şairin ruhu onun köməyinə gəlir, şairin düşüncələri ilə həyatın qaranlıqlarının üstünə yeriyir, bu qaranlıqlara işıq gətirməyə çalışır: *«Olumdan ölümə bir yol gedirik... Bu yolda canından bezənlər də var Bir qarın çörək üçün dilənib gəzən də var. Ömrü ağır yük kimi çiynində daşıyanlar, Taleyin ağrısından, acısından yorulan, Ehtiyacın odunda, atəşində qovrulan Əlin hara uzatsa əlləri boş qayıdan, Allaha əl qaldırıb Ölümünü çağıran... Özümüz yaranmadıq bizi Tanrı yaratdı. Canımıza can verib oyaladı, oyatdı. Hər canlıdan ucada insanlığı yaratdı. İşıq verdi, nur verdi bəbəyinə, gözünə. Ayaq verdi, əl verdi, kömək olsun özünə. Zəhmətin qapısını açdı onun üzünə. Çalışsan alnından tər süzülüncə Tanrı ac buraxmaz səni ölüncə. Tənbəllik ruhunu alsa ağzına, Qənim kəsilərsən öz boğazına. Yaxşı yaşamaqçün işlət başını, Bəhanə gətirmə hər an yaşını. Kimsənin əlinə dikmə gözünü. Zəhmətlə bir yana çıxar özünü. Qarışqa üç fəsil çalışıb durar, Qış üçün özünə azuqə yığar. Güllərin rişəsindən şirə soran arılar, Bircə damla bal üçün Yüz çəmənə baş vurar. Zəhmət qapısına əl uzadan kəs Aclığın qoxusun hiss edə bilməz. Tənbəllik insanın sıxar ruhunu Gözündən ayırmaz acı yuxunu. Tənbəllik insanı çəkər yatağa. Bir ölüm qoxusu çökər otağa. Yatmışla ölmüşün fərqi az olar. Çox yatan insanın bənizi solar. Səhərin gözləri açılınca qalx. İnsana gümrahlıq gətirər sabah. Səhərin havası dəysin canına, Təzəlik, sağlamlıq axsın qanına. Nəfəs al, ruhunun rəngi açılsın. Ömrünə bir işıq, bir nur saçılsın».* Əsərin bu hissəsində göründüyü kimi müəllif zəhməti idealizə edir, tüfeyli həyatı qamçılayır. İnsanları öz hikmətləri ilə inandırmağa çalışır ki, kim zəhmət çəkirsə, onun zəhməti mütləq bəhrəsini verir.

Zənnimcə, Məlahət Soltanqızının *«Ruhun savaşı»* poeması bir şairin, bir söz adamının, qələm sahibinin, nəhayət, ziyalının həyat mövqeyini əks etdirir. Qədim bir türk məsəli var: *«Gec durduğun gün sənin deyil».* Məlahət Soltanqızı da bu tarixdən gələn hikmətə poetik formada yeni məzmun verir. Yəni səhər tezdən durarsan, səhərin sərin havasını alarsan, ruhuna da bir təzəlik gələr. Beləliklə, düşüncə də yeni ideyalarla, fikirlərlə, təşəbbüslərlə səni öz arxasınca çəkər.

Məlahət Soltanqızının «Ruhun savaşı» poeması yeri gəldikcə etiraflarla da, dəqiq həyati müşahidələrlə də zinətlənir. Müəllifin fikir və düşüncələri bir çox hallarda oxucu qənaətləri ilə qovuşur. Hər halda əsər səmimi bir duyğu ilə qələmə alınıb.

***(Davamı var)***